# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 17** **Bakı şəhəri, 20 yanvar 2023-cü il**

**"Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarının (Azərbaycan Respublika-sının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 755; 2005, № 12, maddə 1224; 2007, № 2, maddələr 180, 186; 2008, № 2, maddə 120, № 7, maddə 688; 2013, № 12, maddə 1631; 2018, № 2, maddə 344, № 3, maddə 609; 2019, № 2, maddə 367, № 8, maddə 1454; 2022, № 1, maddə 65, № 8, maddə 1018) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (qeydiyyatçı, nəzarətçi, təsərrüfat işçisi, xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2023-cü il yanvarın 1-dən aşağıdakı məbləğdə müəyyən edilsin:

| **Sıra №-si** | **Kateqoriyalar üzrə dövlət orqanları** | **Aylıq vəzifə maaşının məbləği (manatla)** |
|---|---|---|
| 1. | Ali kateqoriya dövlət orqanlarında | 400 |
| 2. | 1-ci kateqoriya dövlət orqanlarında | 385 |
| 3. | 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında | 365 |
| 4. | 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında | 345 |

Bu Qərarın 1-ci hissəsində qeyd olunan işçilərin mükafatlandırılması məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində onların çalışdıqları dövlət orqanlarında həmin işçilər üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsait nəzərdə tutulur.

Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .- 2023.- 22 yanvar.- S.4.